**Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində göstərilən xidmətlərin və həmin xidmətləri göstərən dövlət orqanlarının (qurumlarının) siyahısı**

Azərbaycan Respublikası Prezidentinin
2021-ci il 25 iyun tarixli
Fərmanı ilə təsdiq edilmişdir

| Sıra №-si | Xidmətin adı |
|---|---|
| 1 | 2 |
| | **1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** |
| 1.1. | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət istiqamətlərinə dair arayışlar verilməsi |
| 1.2. | tibbi sosial ekspertiza və reabilitasiya üzrə xidmətlər, o cümlədən əlilliyin müəyyən edilməsi, reabilitasiya vasitələri ilə təminat |
| 1.3. | məşğulluq sahəsində göstərilən xidmətlər |
| 1.4. | əmək pensiyası və sosial müavinətlər üzrə müraciətlərin qəbulu |
| 1.5. | Azərbaycan Respublikası Prezidentinin təqaüdləri üzrə müraciətlərin qəbulu |
| 1.6. | sosial xidmət sahəsində göstərilən xidmətlər, o cümlədən əlilliyi olan şəxslərin peşə-əmək reabilitasiyası, sosial məişət xidmətlərinin göstərilməsi, sanatoriya-kurort putyovkaları (yollayışları) ilə təminat |
| | **2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi** |
| 2.1. | şəhid və şəhid ailəsi statusunun əldə olunması üçün arayışlar verilməsi məqsədilə müraciətlərin qəbulu (zabit və gizir heyətinə münasibətdə) |
| 2.2. | müharibə veteranı adının və vəsiqəsinin verilməsi üçün müraciətlərin qəbulu (Azərbaycan Ordusuna münasibətdə) |
| 2.3. | orden və medallarla təltif olunma üçün müraciətlərin qəbulu (Azərbaycan Ordusuna münasibətdə) |
| 2.4. | xəsarət (yaralanma, travma, kontuziya) alınması barədə, habelə əlilliyin müəyyən edilməsi üçün tələb olunan müvafiq arayışlar verilməsi məqsədilə müraciətlərin qəbulu |
| 2.5. | sığorta ödənişləri ilə bağlı tələb olunan sənədlərin verilməsi üçün müraciətlərin qəbulu |
| | **3. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi** |
| 3.1. | tabeliyində olan tibb müəssisələrində tibbi yardım göstərilməsi ilə bağlı müraciətlərin qəbulu |
| | **4. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti** |
| 4.1. | hərbi xidmətkeçmə haqqında arayış verilməsi |
| 4.2. | çağırışçılara müddətli həqiqi hərbi xidməti hansı hərbi hissədə keçdikləri barədə məlumat verilməsi |
| 4.3. | müharibə veteranlarına və şəhid ailələrinə müvafiq arayışlar verilməsi |
| 4.4. | hərbi qeydiyyatda olma barədə arayış verilməsi |
| | **5. Yerli icra hakimiyyəti orqanları** |
| 5.1. | yaşayış sahəsinə ehtiyacı olan qismində müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxsin, şəhid ailə üzvünün uçota alınması barədə müraciətlərin qəbulu |

| | |
|---|---|
| 5.2. | yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxs vəfat etdiyi halda həmin uçotun onun ailə üzvləri üçün saxlanılması barədə müraciətlərin qəbulu |
| 5.3. | ərazisində yaşayan şəhid ailələrinə, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçulara və əlilliyi müəyyən edilmiş şəxslərə ailə tərkibini təsdiq edən arayışlar və digər arayışlar verilməsi |
| 5.4. | şəhid adının əbədiləşdirməsi, o cümlədən prospekt, küçə, meydan və müvafiq ərazi vahidinin digər tərkib hissələrinə ad verilməsi, eləcə də onların adlarının dəyişdirilməsi barədə müraciətlərin qəbulu |
| **6. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi** | |
| 6.1. | tabeliyində olan tibb müəssisələrində səhiyyə xidmətləri ilə bağlı müraciətlərin qəbulu |
| 6.2. | immunoprofilaktikaya dair məlumat verilməsi |
| 6.3. | tibbi arayışların elektron registrindən məlumatların verilməsi |
| **7. Azərbaycan Respublikasının Dövlət Sığorta Kommersiya Şirkəti** | |
| 7.1. | şəhid statusu verilmiş şəxsin vərəsələrinə sığorta ödənişlərinin verilməsi ilə bağlı müraciətlərin qəbulu |
| 7.2. | müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə sığorta ödənişlərinin verilməsi ilə bağlı müraciətlərin qəbulu |
| 7.3. | hərbi xidmət vəzifələrinin (xidməti vəzifələrinin) yerinə yetirilməsi ilə əlaqədar xəsarət (yaralanma, travma, kontuziya) alan hərbi qulluqçulara sığorta ödənişlərinin verilməsi ilə bağlı müraciətlərin qəbulu |